Təhsil haqqından azad olanlar:

1. **Məcburi köçkünlər.**

16 yaşı tamam olmamış tələbələr valideyinlərinin məcburi köçkünlüyünü təsdiq edən sənədi (**portal çıxarışını**) təqdim etməlidir.

16 yaşı tamam olan tələbələr özünün məcburi köçkünlüyünü təsdiq edən sənədi

(**18 yaşı tamam olan tələbələr portal çıxarışını**) təqdim etməlidir.

2. **Valideyin himayəsindən məhrum olunmuş tələbələr.**

Ödənişli əsaslarla əyani formada təhsil alan və mövcud qanunvericiliyə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş və ya ona bərabər tutulan 23 yaşınadək tələbələr nəzərdə tutulur.

Hər iki valideyinini itirən tələbələr ölüm haqqında şəhadətnaməni təsdiq edən sənədi (**notariat təsdiqi**) təqdim etməlidir.

Valideyinlərindən biri rəhmətə getmişsə ölüm haqqında şəhadətnamə, digəri I və II qrup əlilliyini təsdiq edən sənədi (**portal çıxarışını**) təqdim etməlidir.

Tələbə valideyin himayəsindən məhrum olunubsa qəyyum təyin olunma barədə məhkəmə qərarını təsdiq edən sənədi (notariat təsdiqi) təqdim etməlidir.

3. **Qarabağ əlili**

Ödənişli əsaslarla əyani və qiyabi formada təhsil alan və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları olan təsdiq edən sənədi (**tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair malumatın verilməsi sənədi, forma 88**) təqdim etməlidir

4. **Sağlamlıq imkanları məhdud tələbələr**

Ödənişli əsaslarla təhsil alan orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə , habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin təsdiq edən sənədi (**tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair malumatın verilməsi sənədi, forma 88)** təqdim etməlidir.

5. Ailə üzvülərindən şəhid olmuş tələbə Şəhid ailəsi vəsiqəsini təqdim etməli
6. Müharibə veteranı Zəfər alt sistemdən çıxarışı və veteranlıq sənədini təqdim etməli.